**Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu**

**Azərbaycan Milli Platformasının**

# *Layihələrin idarə olunması, ümumi nəzarətin həyata keçirilməsi və Platforma üzvlərinin iştirakçılığı qaydaları*

***Bakı 2021***

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Avropa İttifaqı Sərq Tərəfdaslığı Vətəndas Cəmiyyəti Forumu Azərbaycan Milli Platforması (bundan sonra Milli Platforma) üzvlərinin Platformanın məqsədləri, fəaliyyəti ilə əlaqədar, Şərq Tərəfdaslığı Vətəndas Cəmiyyəti Forumunun, digər donorların Platformanın fəaliyyətinin dəstəklənməsi üçün verdikləri qrant vəsaiti hesabına icra etdikləri layihələrin icrasına ümumi nəzarət, hesabatlılıq, şəffaflığın, cavabdehliyin təmin edilməsi və Platforma üzvlərinin cəlb olunmasının təşkilati-normativ və metodiki əsaslarını müəyyən edir.

1.2. Bu Qaydalar Avropa İttifaqı Sərq Tərəfdaslığı Vətəndas Cəmiyyəti Forumu Azərbaycan Milli Platformasının Nizamnaməsinin, Etik Davranış Kodeksinin, Üzvlük siysəti sənədinin, Avropa İttifaqı Sərq Tərəfdaslığı Vətəndas Cəmiyyəti Forumunun Nizamnaməsinin və digər sənədlərinin əsas prinsip və qaydaları nəzərə alınmaqla hazırlanıb.

1.3. Bu qaydalar Ümumi Yığıncağı tərəfindən qəbul edilib və təsisat olaraq Milli Platformanın, onun üzvləri, idarəetmə orqanları və digər struktur vahidləri üçün rəhbər sənəddir.

1.4. Bu Qaydalara Nizamnamədə nəzərdə tutulan müddəalara uyğun olaraq Ümumi Yığıncaq tərəfindən dəyişiklik edilə bilər

1.5. Hər bir Platforma üzvü bu Qaydalar ilə əlaqədar Milli Platformanın idarəetmə orqanlarına, Ümumi Yığıncağa təklif verə bilər.

1.6. Bu Qaydalarla Nizamnamə arasında hər hansı ziddiyyət yarandığı zaman sonuncunun müddəaları əsas götürülür.

## 2. Məqsədi

Bu Qaydaların məqsədi Milli Platforma üzvləri tərəfindən bu Qaydaların 1.1 bəndində nəzərdə tutlan layihələrin Platformanın Nizanmasəi və normativ sənədlərinin tələblərinə və qrant müqaviləsinin şərtlərinə uyğunluğunu, nəzərdə tutulan tədbirlərin səmərəli icra olunmasını, habelə layihələrin şəffaflığını, hesabatlılığını təmin etməkdən ibarətdir.

## 3. Layihələrin icrası zamanı şəffaflıq və hesabatlılıq:

3.1. Milli Platformaya dəstək proqramları, yaxud Platformaya verilən qrant, xidmət müqavilələri, sifarişlərlə əlaqədar elanlar, müsabiqələr, tenderlər, araşdırma, tədqiqatlar, sorğular, ekspertlərin, muzdlu işçilərin cəlb olunması, audiovizual məhsulların, nəşrləririn, əyani vəsaitlərin, reklam məhsullarının hazırlanması, ümumiyyətlə işlər və xidmətlərin göstərilməsiylə bağlı zəruri məlumatlar

Əlaqələndirici tərəfindən Platforma üzvlərinə mümkün olduğu qədər operativ və əlçatan formada çatdırılır.

3.2. Bu Qaydaların 1.1 bəndində nəzərdə tutlan layihələrin icrası zamanı Milli Platforma üzvləri şəffaflıq və hesabatllığın ən yüksək standartlarına riayət edirlər.

3.3. Layihələrin icrası ilə bağlı icraçı Platforma üzvləri layihə haqqında, məqsədi, büdcəsi, layihə fəaliyyətləri, müddəti, hədəf qrupları, planlaşdırılan tədbirlər, həyata keçirilmiş tədbilər, əldə olunan nəticələr və layihə üzə vakansiyalar, işə cəlb olunan heyət, muzdlu işçilər, ekspertlər, tərəfdaşlar barədə İdarə Heyətini yazılı şəkildə məlumatlandırırlar.

3.4. Layihələrin icrası ilə bağlı icraçı Platforma üzvləri mütəmadi, ayda bir dəfədəm az olmayaq, yaxud İdarə Heyətinin yazılı sorğusu əsasında layihə icra olunan müddətdə istənilən vaxt İdarə Heyətini yazılı şəkildə məlumatlandırırlar. Layihə başa çatdıqdan sonra İdarə Heyətinə layihənin əsas fəaliyyətləri, əldə olunan nəticələr, naliyyətlər barədə hesabat təqdim edirlər.

3.5. Layihələrin icrası, əsas fəaliyyətləri, əldə olunan nəticələr, naliyyətlər barədə icraçı Platforma üzvləri digər Platforma üzvlərini, zərurət yarandıqda digər maraqlı tərəfləri mütəmadi olaraq məlumatlandırırlar.

3.6. İdarə Heyəti bu Qaydaların 1.1 bəndində nəzərdə tutlan layihələr, onların icrası, icra prosesi, əsas fəaliyyətlər, nəticələr, müsabiqələr, vakansiyalar, malların və xidmətlərin satınalınması və digər zəruri hesab etdiyi məlumatların Platforma üzvləri arasında yayılması və onlara əlçatanlığın təmin edilməsi üzrə zəruri tədbirlər həyata keçirməlidir.

3.7. İdarə Heyəti mütəmadi olaraq bu Qaydaların 1.1 bəndində nəzərdə tutlan layihələr barədə ümumiləşdirlmiş məlumatları, analizləri Platforma üzvlərinə təqdim etməlidir.

## 4. Layihələrin icrası zamanı mülkiyyət hüququ, cavbdehlik və ictimaiyyətlə əlaqələr sahəsində öhdəliklər:

Qaydaların 1.1 bəndində nəzərdə tutlan layihələrin icrası zamanı əldə olunan maddi və qeyri-maddu məhsullara Platformanın da mülkiyyət hüququ tanınmalıdır. Bunlardan istifadə ilə bağlı müəllif hüquqlarının üçüncü tərəfə verilməsi zamanı İdarə Heyətinin müvafiq yazılı icazəsi olmalıdır.

Bu layihələrin icrası zamanı hazırlanmış hesabatlarin, tövsiyyələrin və s. Platforma adından, yaxud Platformanın məhsulu kimi təqdim edilməsi üçün Platformanın İdarə Heyətinin müvafiq yazılı icazəsi alınmalıdır.

Bu Layihələrin icrası zamanı hazırlanmış məhsullarda, reklam məhsullarında və Platformanın loqosundan istifadə olunasmı üçün İdarə Heyətinin müvafiq yazılı icazəsi alınmalıdır.

Bu layihələrin icrası zamanı Platforma adından ictimaiyyət üçün açıqlama verilməsi, yayılması, müzkirələr aparılması və hər hansı tədbir həyata keçirilməsi, təşəbbüs irəli sürülməsi əvvəlcədən İdarə Heyəti ilə razılaşdırılmalıdır

## 5. Platforma üzvlərinin iştirakçılığı:

Bu Qaydaların 1.1 bəndində nəzərdə tutulan layihələrin icrası zamanı obyektivlik, qərəzsizlik, peşəkarlıq və ədalətli rəqabət prinsipləri rəhbər tutulmaqla ilk növbədə Platforma üzvlərinin potensialından istifadə edilməsinə üstünlük verilməlidir.
Platformanın rəhbər orqanlarının üzvləri Etik Davranış Kodeksinin tələbləri nəzərə alınmaqla Bu Qaydaların 1.1 bəndində nəzərdə tutlan layihələrin icrasına cəlb oluna bilər. Bu zaman bu şəxslər Etik Davranış Kodeksinin tələblərinə əsasən icrasına cəlb olunduğu layihələrlə bağlı məsələlərin müzakirəsi, qərarların verilməsində iştirak edə bilməzlər.
Bu layihələrin idarəçiliyində, yaxud eskpert qismində iştirak onların Platformanın rəhbər orqanlarının üzvü kimi vəzifələrinin icrasına xələl gətirməməlidir.

## 6. Layihələrin idarə olunması ilə bağlı işçi sənədlər və standartlar

Milli Platformanın İdarə Heyəti layihələrin daha səmərli idarəolunması, şəffafıq və hesabatlılığın artırılması məqsədilə bu sənədi əsas götürməklə aşağıdakı sənədləri hazırlamalı və qəbul etməlidir:

- Layihə koordinatoru, layihə assistenti, layihə mühasibi, ofis meneceri vəzifələrinə dair tələblər;
- Platformanın maliyyə menecmentinə dair (operator təşkilata, maliyyə menecerlərinə, ayihə icraçısı olan təşkilatın mühasibatlığına) dair tələblər;
- Satınalma siyasəti;
- İnzibati prosedurlarla bağlı sənədlər;
- Sənədlərin hazırlanması standartları (istinad şərtləri, iştirakçı siyahısı, proqram, təqdimat, siyasət sənədi, mövqe sənədi, hesabat forması, qiymətləndirmə forması və s)
- Subqrantlara dair standartlar (texniki meyarlar, təşkilati meyarlar, məzmun meyarları; (SMART), maddi göstəricilər, qiymətləndirmə cədvəli və s)
- Mütəxəssilərin cəlb olunmasına dair standartlar
- Təmsilçiliklə əlaqədar Qaydalar

Milli Platformanın İdarə Heyəti zərurət yarandığı halda digər işçi sənədləri hazırlayır və qəbul edir. Milli Platformanın bütün işçi sənədləri üzvlər üçün açıq və əlçatan olmalıdır.